# DAVAMLI SATINALMA SİYASƏTİ

## I. SİYASƏTİN MAHİYYƏTİ

Davamlı satınalma siyasəti istehlak materialları, uzunmüddətli istifadə üçün nəzərdə tutulan mallar, həmçinin aidiyyatı üzrə zəruri əlavə və dəyişikliklərin həyata keçirilməsi məqsədilə satınalmalara tətbiq edilən təlimat və resursları təmin edir.

## II. SATINALMA SİYASƏTİNƏ DAİR BƏYANAT

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Sosial məsuliyyət və davamlılıq vasitəsilə dəyərlərimizə uyğun hərəkət etmək" hədəfinə uyğun olaraq, bu siyasətin məqsədi universitet satınalmalarını sosial məsuliyyət və ekoloji davamlılıq çərçivəsində həyata keçirməkdir. Bunlara daha təkmil enerji mənbələri, su ehtiyatlarından səmərəli istifadə, universitetin karbon neytrallığına və ya bərpaolunan enerji istehsalına doğru istiqamətləndirilməsi, bərpaolunan materiallardan istifadə, tullantıların, xüsusilə təhlükəli materialların aradan qaldırılması, kampusun fiziki mühitinin yaxşılaşdırılması, əməkdaşların və daha geniş ictimaiyyətin davamlılıq təcrübələrinə təşviqi daxildir.

## III. DAVAMLI SATINALMA SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

Davamlı Satınalma Siyasətinin əsas prinsipləri çərçivəsində universitet əməkdaşları aşağıdakılara nail olmağa çalışmalıdırlar:

**1.** Satınalmadan universitetin sosial məsuliyyət və ekoloji davamlılıq dəyərlərinə uyğun istifadə edilməsi;

**2.** Daha çox bərpaolunan materiallardan istifadə etməklə universitetin bu istiqamətə uyğun siyasətinin dəstəklənməsi;

**3.** İstixana qazları emissiyalarının aradan qaldırılması məqsədilə daha çox alternativ enerji mənbələrindən istifadə olunması.

**Rektor v.m.i.e.** **dosent Vazeh Əskərov**